AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

ZAUR NAZİM OĞLU ADIGÖZƏLOV

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ AVROPA İTTİFAQI ÖLKƏLƏRİ: SİYASİ ƏLAQƏLƏR (1991-2006)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

NAXÇIVAN – 2013

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Yaqub Mikayıl oğlu Mahmudov**
AMEA-nın müxbir üzvü,
tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Oqtay Balaqədəş oğlu Sultanov**
Tarix üzrə elmlər doktoru, professor

**Elçin Dağbəyi oğlu Zamanov**
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrası

Müdafiə 28 dekabr 2013-cü il tarixdə saat ___-da AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"__________ 2013-cü ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya**
**Şurasının elmi katibi:** **E.A.ŞIXƏLİYEV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Avropaya inteqrasiya prosesinin Azərbaycanın xarici siyasət prioritetlərindən biri olması bu gün artıq heç kimdə şübhə doğurmur. 20 ildən artıqdır ki, bu siyasət uğurla gerçəkləşdirilir. Bu gün Avrointeqrasiyanın Azərbaycanın xarici siyasət prioritetlərindən biri olması kifayət qədər hüquqi-normativ baza ilə də təsbit olunmuşdur. Azərbaycanın avrointeqrasiya siyasəti Azərbaycan Respublikasının Milli Təhlükəsizlik haqqında Qanununda, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında, Azərbaycan Respublikasının Hərbi Doktrinasında öz əksini tapmışdır. Məsələn, Milli Təhlükəsizlik Konsepsiyasında qeyd olunur: "Avropa və Avroatlantik strukturlarına inteqrasiya Azərbaycan Respublikası Avropa və Avroatlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər strukturlarına inteqrasiya strateji məqsədini güdür." Bundan başqa avrointeqrasiyanın Azərbaycanın xarici siyasət prioritetlərindən biri olması Ulu Öndər Heydər Əliyevin, onun siyasi kursunu uğurla davam etdirən ölkə Prezienti İlham Əliyevin çıxışlarında da əsaslandırılımışdır.

Günümüzdə Avroatlantik məkana inteqrasiya kursunu gerçəkləşdirən Azərbaycan Avropa məkanı, yaxud dövlətləri ilə, eyni zamanda Avropanın aparıcı dövlətlərinin maraqlarını təmsil edən NATO, ATƏT, Avropa Şurası, Avropa İttifaqı və b. kimi beynəlxalq və regional təşkilatlarla sıx və hərtərəfli əlaqələr qurmuş və bu münasibətləri inkişaf etdirir. Qeyd edək ki, adı çəkilən beynəlxalq və regional təşkilatlar ümumiyyətlə beynəlxalq siyasi səhnədə aparıcı rola malikdirlər və dünyanın əsas aparıcı dövlətlərindən hesab edilən Avropa dövlətlərinin maraqlarını təmsil edirlər. Eyni zamanda məhz bu təşkilatlarla paralel əməkdaşlıq Avroatlantik məkana inteqrasiya siyasətinin uğurla gerçəkləşdirilməsinin qarantıdır.

Lakin bütün bunlarla yanaşı artıq hamı tərəfindən qəbul edilmiş faktdır ki, əslində Avrointeqrasiya prosesinin ümum tərənnümçüsü Avropa İttifaqıdır. Qloballaşma ölkələr arasında sərhədləri daha çox şərti edir. Belə vəziyyət isə Şərqlə Qərb arasında ən səmərəli körpü rolunu oynayan Azərbaycan Respublikasını beynəlxalq ictimaiyyət üçün daha da cəlbedici etmişdir. Siyasi, iqtisadi və mədəni cəhətdən inteqrasiyanın nəticəsi və təzahürü olan Avropa İttifaqı, fikrimizcə bütövlükdə qloballaşma prosesinin reallaşmış kiçik bir modeli ola bilər. Bir təşkilat yaxud dövlətüstü qurum kimi Avropa İttifaqının əslində Avropa qitəsində mövcud olan yalnız inkişaf etmiş və aparıcı dövlətləri əhatə etməsi artıq

bir aksiomdur. Yarandığı vaxt ilk növbədə iqtisadi inteqrasiya prosesi kimi təzahür edən Avropa İttifaqı artıq son 20 ildə, daha doğrusu Maastrix müqaviləsindən sonra təkcə iqtisadi deyil, həmdə siyasi təsisat olub, bu təşkilata üzv olan bütün dövlətlərin xarici siyasi maraqlarını ifadə edə bilir.

Avropa İttifaqının Azərbaycana olan marağı böyükdür. Azərbaycan Asiya və Avropanın kəsişmə nöqtəsində yerləşir və böyük enerji, tranzit potensialına malikdir. Avropa İttifaqına görə, bu imkanlar baxımından Azərbaycan ilə əməkdaşlıq Avropa İttifaqının enerji asılılığına son qoya bilər. Avropa İttifaqı 1993-cü ildən başlayaraq TACİS, TRASECA kimi layihələrlə Cənubi Qafqaz regionunda əsas iştirakçılardan birinə çevrilməyə başlamışdır. Bundan başqa 1996-cı ildən başlayaraq TƏS, daha sonra 2004-cü ildən başlayaraq YQS çərçivəsində Azərbaycanla əməkdaşlıq genişləndirilib və inkişaf etdirilib. Əldə edilən uğurlar hər iki tərəfin səyinin nəticəsidir.

Azərbaycan üçün Avropa İttifaqı həmçinin olduqca önəmli tərəfdaşdır. Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlıqda iki əsas məqsəd güdür. Birincisi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyinin dünya dövlətlərinə çatdırılması və bununla da münaqişənin məhz Azərbaycanın maraqlarına uyğun həllinin təmin edilməsi; İkincisi, Azərbaycan öz enerji və tranzit potensialının Avropa üçün əhəmiyyətini dərk edir və bundan maksimum yararlanmağa çalışır. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan üçün yeni investisiyalar, yeni enerji layihələri deməkdir. 1991-2006-cı illərdə xarici siyasətdə qarşıya qoyulmuş bu iki məqsəd Azərbaycanın Avropa İttifaqı və ona üzv olan dövlətlərlə siyasi və iqtisadi əlaqələrinin mahiyyətini təşkil edir. Əgər nəzərə alsaq ki, Avropa İttifaqının Azərbaycana olan marağı ona üzv olan dövlətlərin marağıdır, onda əminliklə deyə bilərik ki, Avropa İttifaqının Azərbaycanla bağlı son illərdə nümayiş etdirdiyi müsbət mövqe ona üzv olan dövlətlərin mövqeyidir. Əgər Azərbaycanın son 20 illik diplomatiya tarixinə nəzər salsaq görərik ki, Avropa İttifaqı və ona üzv olan Avropanın aparıcı dövlətlərinin Azərbaycana bu gün müsbət münasibəti Azərbaycan tərəfindən asan əldə olunmamışdır. Bir çox yanaşmalara görə bu cür münasibət Azərbaycanın enerji və tranzit potensialı ilə bağlıdır. Əlbəttə, hesab edirik bu amil mütləq nəzərə alınmalıdır. Lakin təkcə bu amili əsas gətirmək olmaz.

Tədqiqatın mövzusunun aktuallığı ilk növbədə onunla müəyyən

olunur ki, 1991-2006-cı illərdə Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə formalaşan və inkişaf edən siyasi münasibətləri müasir diplomatiya tariximizdə mühüm bir mərhələni təşkil edir və bu mərhələnin öyrənilməsi, Azərbaycan tarixşünaslığı üçün olduqca zəruridir. Əslində bu illər Azərbaycanın Avropa dövlətləri ilə siyasi və digər sahədə münasibətlərinin qurulması ilə bərabər, ümumiyyətlə, Azərbaycanın müstəqil bir dövlət kimi xarici siyasət kursunun, diplomatik ənənələrinin formalaşması və inkişafı dövrüdür.

Vətən tairixində və Azərbaycan diplomatik ənənələrini öyrənən digər humanitar elm sahələrində tədqiq olunan problemin ən müxtəlif tərəfləri araşdırılsa da, faktiki olaraq bu gün Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətlərinə kompleks bir yanaşma yoxdur və mövcud siyasi münasibətləri tam şəkildə aydınlaşdıra biləcək bir sıra məqamlar tədqiq olunmamış, araşdırılmamış qalır.

Artıq qeyd etdiyimiz kimi Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətləri müstəqilliyin ilk illərindən başlayaraq avrointeqrasiya prosesi çərçivəsində formalaşmış və inkişaf etmişdir. Avrointeqrasiyanı xarici siyasətin prioritet istiqamətinə çevirən, Azərbaycanın konkret olaraq qarşısına qoyduğu məqsədlərin açıqlanması, aydınlaşdırılması olduqca zəruri bir problem olaraq durur. Əsas siyasi məqsədlərin müəyyən edilməsi aktualdır.

Digər bir tərəfdən unutmaq olmaz ki, Avropa İttifaqına üzv olan dövlətlərin də, elə bu təşkilatın bütövlükdə özünün də Azərbaycanla qurulan münasibətlərdə müəyyən maraqları var. Bu maraqların nədən ibarət olmasına da aydınlıq gətirmək lazımdır.

Bildiyimiz kimi, Sovetlər Birliyinin süqutundan sonra müstəqillik əldə etmiş dövlətlərin əksəriyyəti avrointeqrasiyanı xarici siyasət kursuna çevirmişdir. Bu ölkələrin hər birində avrointeqrasiya prosesinin yekun sərhədi, ssenarinin sonu kimi müxtəlif vəzifələr ortaya qoyulmuşdur. Avropa daxilində avrointeqrasiya prosesinin sonu siyasi inteqrasiya Vahid Avropa Dövlətininin tərkibinə qatılma mənasnı verir ki, bu sonda Avropa maraqları naminə siyasi suverenliyin tamamilə itirilməsi anlamına gəlir. Avropa İttifaqına üzv olan dövlətlərin əksəriyyəti düşünülmüş formada buna getmişdir. Sovetlər Birliyi düşərgəsinə daxil olan dövlətlər sırasında Baltikyanı dövlətlər bu yolu seçmişdir. Bildiyimiz kimi Azərbaycan özünün avrointeqrasiya siyasətində belə bir məqsəd daşımır.

Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətlərinin formalaşması və inkişafı, müasir dönəmə gəlib çıxması

boyük bir zəhmətin, gərgin bir işin nəticəsidir. Faktiki olaraq burada Avropanın ən inkişaf etmiş 27 dövlətindən söhbət gedir. Heç şübhəsiz müasir diplomatiya tariximizin öyrənilməsi zamanı problemin subyekt səviyyəsində nəzərdən keçirilməsi olduqca aktual xarakter daşıyır. Heç şübhəsiz Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursunun bütün uğurları Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin, onun xarici siyasət kursunu uğurla davam etdirən Prezident İlahm Əliyevin adı ilə bağlıdır. Problemi tədqiq edərkən bu məsələnin üzərində durmaq lazımdır.

Artıq qeyd etdiyimiz kimi Azərbaycanın Avropa dövlətləri ilə siyasi münasibətlərinin formalaşması və inkişafı ilə bağlı öyrənilməmiş çoxlu sayda məqamlar var ki, onların araşdırılması Azərbaycanın müasir diplomatiya tarixi üçün vacibdir. 1991-2006-cı illərdə Azərbaycanın Avropa dövlətləri ilə siyasi əlaqələrinin formalaşmasnda Azərbaycan diasporasının da böyük rolu vardır. Onların bu işdə oynadığı rola xüsusi qiymət vermək lazımdır. Onların diplomatik, vasitəçilik fəaliyyətinin öyrənilməsi də olduqca vacib bir məqamdır. Bu problemə də vətən tarixşünaslığında demək olar ki, toxunulmur. Eyni fikri Azərbaycan parlamentinin xarici əlaqələri haqqında da demək mümkündür.

Ümumən 1991-2006-cı illərdə Azərbaycanın Avropa dövlətləri ilə siyasi tarixini öyrənərək biz Azərbaycanın Avropaya inteqrasiya prosesində gözləntilərini, siyasi və iqtisadi maraqlarını, mənafelərini aşkara çıxara bilirik.

**Dissertasiyanın xronoloji çərçivəsi** 1991-2006-cı illəri əhatə edir. Azərbaycan Respublikası məhz 1991-ci ildə müstəqillik əldə etmişdir. Məhz 1991-ci ilin dekabr ayından Azərbaycanın müstəqil bir dövlət kimi tanınması prosesi start götürür və bu mənada 1991-ci ili müasir diplomatiya tariximizin bifurkasiya nöqtəsi kimi seçə bilərik. Bildiyimiz kimi ilk olaraq Türkiyə Cümhuriyyəti və Pakistan İslam Respublikası, onun ardınca isə Avropanın aparıcı qərb dövlətləri – İngiltərə, Fransa, Almaniya, İtaliya və Belçika Azərbaycanın müstəqilliyini tanıdı.

Dissertasiyada Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətlərinin formalaşması və inkişaf tarixi öyrənilir. Bildiyimiz kimi Avropa İttifaqının 27 üzvü var və onlardan sonuncular – Bolqarıstan və Rumıniya 2007-ci ildə İttifaqa üzv qəbul edilmişdir. Azərbaycanla 27 üzv dövlətin hər biri ilə ikitərəfli siyasi münasibətlər eyni vaxtda qurulmamışdır. Əlbəttə 1994-ci ilə kimi faktiki olaraq bütün Avropa

dövlətləri ilə diplomatik əlaqə qurulmuşdu. Lakin diplomatik əlaqələr heç də hər zaman siyasi münasibətləri əhatə etmir. Məsələn, 2004-cü ilə kimi Azərbaycanın Şərqi Avropa ölkələrinin əksəriyyəti ilə əlaqələrində siyasi məzmuna rast gəlinmir. Faktiki olaraq Şərqi Avropa ölkələri 2004-cü ildə Avropa İttifaqına üzv olduqdan sonra İttifaq tərəfindən onların enerji tranzit imkanları qiymətləndirildi və bundan sonra bu ölkələrlə ikitərəfli əlaqələrimizdə Avropa İttifaqınn enerji təhlükəsizliyi siyasəti amili rakursunda siyasi meyarlar ortaya çıxdı. Faktiki olaraq 2007-cı ildə Azərbaycanın Avropa İttifaqının üzvü olan bütün dövlətlərlə siyasi əlaqələri artıq formalaşmış sayıla bilir.

**Mövzunun işlənmə dərəcəsi.** Dissertasiyanın mövzusu sırf Azərbaycanla bağlı olduğundan əsasən tədqiqat zamanı Azərbaycan tədqiqatçılarının araşdırmalarına daha çox yer verilmişdir. Bununla bərabər hesab edirik ki, dissertasiya üçün seçilmiş mövzunun işlənmə dərəcəsini müəyyən etmək üçün bir neçə səviyyə üzrə elmi araşdırmaları qruplaşdırmaq olar.

İlk növbədə onu deyək ki, mövzunun obyektini 1991-2006-cı illərdə Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətləri təşkil edir. Problem sırf Azərbaycanla bağlı olduğu üçün əsasən yerli tədqiqatlara müraciət etməyə çalışmışıq. Azərbaycan alimlərindən Mehdiyev R.,[1] Həsənov Ə.,[2] Qasımlı M.,[3] Həmidov S.,[4] Hüseynova H.,[5] Qocatürk N.,[6] Qəndilov S.,[7] Piriyev A.,[8] Şükürov İ.,[9] Arzumanlı V.,[10]

[1]Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2008, 792 s.
[2]Həsənov. Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000 368 s.
[3]Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı: Gənclik, 1996, 135 s.
[4]Həmidov S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. Bakı: ADU nəşriyyatı, 2009, 271 s.
[5]Hüseynova H. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, 1998, 110 s.
[6]Qocatürk N. İlham Əliyev: İpək Yolu sivilizasiyası və Azərbaycan diplomatiyası. Bakı: Nurlan, 2008, 471 s.
[7]Qəndilov S.M. Azərbaycanın xarici siyasətinin başlıca istiqamətləri (iyun 1993-1997-ci illər) // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 1998, № 1, s. 54-62.
[8] Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı: BDU, 2005, 544 s.
[9] Шукуров И. Дипломатия мира. Баку: Азербайджан., 390 с.
[10]Arzumanlı V, Hüseynov A. Azərbaycan ünvanlı. Bakı: Qorqud, 1994, 110 s.

Abdullayev E.,[1] Babaoğlu H.,[2] Abbasbəyli A.,[3] Quliyev S.,[4] İsmayılzadə X.,[5] və başqaları Azərbaycanın xarici siyasəti, onun müxtəlif problemləri, onun tarixi və digər müxtəlif aspektləri üzrə mühüm elmi-praktiki əhəmiyyətə malik tədqiqatlar aparmışlar və onların araşdırmaları bir sıra əsərlərdə öz əksini tapmışdır. Adı çəkilən alimlərin və tədqiqatçıların araşdırmalarında problem kompleks halında öyrənilməsə də, müxtəlif dövlətlərlə müasir dövrdə əlaqələrimizin tarixi araşdırılır.

Bizim tədqiqatımızda Avropa İttifaqına üzv olan hər bir dövlətə individual yanaşma tətbiq olunmuşdur. İlk növbədə həmin dövlətlər içində Azərbaycanla tarixi siyasi əlaqələri olanlar seçilmiş və bu siyasi əlaqələr araşdırılmışdır. Bu işdə Azərbaycanın nüfuzlu tarixçi alimlərinin əsərlərinə müraciət edilmişdir. Azərbaycanın Avropa dövlətləri ilə tarixi əlaqələrini araşdıran alimlərdən Mahmudov Y.,[6] Əfəndiyev O.,[7] Aşurbəyli S.,[8] Nəsibzadə N.,[9] Qasımlı M.,[10] Baxışova M.[11] və başqalarının əsərlərindən geniş istifadə olunub. Azərbaycanın dövlətçilik və diplomatiya tarixinin öyrənilməsi ilə bağlı ötən yüzillikdə meydana gələn araşdırmalar XX əsrin sonlarında, Azərbaycan müstəqillik əldə etdikdən sonra meydana gəlmişdir. SSRİ-nin dağılması ərəfəsində və Azərbaycanın müstəqilliyinin ilk illərində bu problem tədqiqatçılar tərəfindən daha intensiv şəkildə araşdırılmağa başladı. Y.Mahmudovun 90-cı illərin əvvəllərində meydana gələn əsərləri və tədqiqatları (Ağqoyunlu və Səfəvi dövlətləri ilə Qərbi Avropa ölkələrinin əlaqələri) bu istiqamətdə atılmış

---

[1]Abdullayev E.İ. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: Təhsil, 2004, 216 s.

[2]Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Aypara-3, 2009, 328 s.

[3]Аббасбейли А., Аббасбейли Э. Гейдар Алиев и мировая политика. Баку: Азернешр, 1997, 302 с.

[4]Quliyev S. Bağımsızlıktan sonra Azerbaycan – ABD ilişkileri. Ankara, 2003, 332 s.

[5]İsmayılzadə X.F. Skandinaviya dövlətləri ilə əlaqələr müstəqil Azərbaycanın xarici siyasəti kontekstində dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə №3 (23) Bakı: Azərbaycan nəşriyyatı, 2008, s. 126-132.

[6]Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü. (XV əsrin II yarısı). Bakı: Təhsil, 2007, 116 s.

[7]Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 352 s.

[8]Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press, 2006, 416 s.

[9]Nəsibzadə N. Azərbaycanın xarici siyasəti: (1918-1920) Bakı: Ay Ulduz, 1996, 304 s.

[10]Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı: Gənclik, 1996, 135 s.

[11]Beynəlxalq münasibətlər tarixi (XVII əsrin II yarısından 1871-ci ilədək): Dərs vəsaiti Red.: A.N.Abbasbəyli. Bakı: Şirvannəşr, 2005, 164 s.

mühüm addım kimi diqqəti cəlb edir. Y.Mahmudovun tədqiqatları sonrakı illərdə davam etmiş və Azərbaycanın dövlətçilik və diplomatiya tarixinin öyrənilməsi baxımından əvəzsiz əsərlərin meydana gəlməsi ilə nəticələnmişdir.

M.Qasımlı, N.Nəsibzadə kimi Azərbaycanın tarixçi alimlərinin əsərlərinə müraciət edərək Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti və beynəlxalq əlaqələri problemi ilə bağlı qiymətli məlumatlar əldə edilmişdir. Bu alimlərin əsərlərində birinci dünya müharibəsindən sonra yaranmış mürəkkəb beynəlxalq vəziyyət araşdırılır, müstəqilliyini bərpa etmiş Azərbaycanın öz dövlətçiliyini qoruyub saxlamaq və möhkəmləndirmək yolunda həyata keçirdiyi xarici siyasətin mahiyyəti və istiqamətləri tədqiq edilir.[1]

Azərbaycanın Avropaya inteqrasiyası problemləri və Avropa İttifaqı ilə münasibətlərinə tədqiqatımızda xüsusi yer vermişik. Apardığımız tədqiqat zamanı. R.Mehdiyevin, Ə.Həsənovun,. G.Əliyevanın, H.Babaoğlunun əsərlərində[2] bu məsələlərin geniş tədqiq olduğunu müəyyən etmişik.

Akademik R. Mehdiyev Azərbaycanın xarici siyasət kursu kimi Avrointeqrasiyanın fəlsəfi məzmunu ilə bağlı çox qiymətli fikir və mülahizələr yürütmüş, bu prosesin Azərbaycan üçün mənfi və müsbət tərəflərini açıqlamışdır.

Professor Ə.Həsənov öz əsərlərində[3] Avropaya inteqrasiyanın zəruriliyini obyektiv formada əsaslandırır və bu prosesin əsas mahiyyətini açıqlayır. Azərbaycanın bu istiqamətdə yürütdüyü xarici siyasət kursunu son dərəcə dəqiqliklə açıqlamağa çalışır.

Azərbaycanın Avropa İttifaqı ilə qarşılıqlı əlaqələrinin formalaşması

---

[1]Qasımlı M. Abdullayev M. Beynəlxalq Münasibətlər Tarixi (XX əsr. I hissə. 1900-1945-ci illər. Bakı, 1998, 428 s.; Nəsibzadə N. Azərbaycanın xarici siyasəti. (1918-1920). Bakı: Ay-Ulduz, 1996, 304 s.

[2]Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2008, 792 s.; Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı: Polygraphic Production 2006, 583 s.; Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.; Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Aypara-3, 2009, 328 s.

[3]Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.; Həsənov Ə. Geosiyasət: nəzəriyyələri, metodologiyası, aktorları, tarixi, xarakteristikası, anlayışları. Bakı: Aypara-3, 2010, 604 s.; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s.

ilə bağlı G.Əliyevanın demək olar ki, ilk sistemli tədqiqatı[1] bu əlaqələrin formalaşma tarixi və mərhələlər barədə ətraflı məlumat əldə etməyə kömək edir. Eyni sözləri H.Hüseynovanın[2] və S.Həmidovun[3] araşdırmaları barədə də demək olar.

Yuxarıda adları çəkilən alimlərin bəzilərinin əsərləri müstəqil Azərbaycanın Avropa dövlətləri ilə ikitərəfli münasibətlərinin qurulması prosesi haqqında məlumat almaq üçün çox qiymətli töhfədir. Azərbaycanın beynəlxalq əlaqələrinin qurulması və inkişaf etdirilməsi sahəsində 1993-cü ilin sonundan başlayaraq həyata keçirilən tədbirlər İ.Şükürovun tədqiqatlarında geniş işıqlandırılır. Ulu Öndər Heydər Əliyevin xarici səfərlərinin iştirakçısı olan müəllif, hadisələrin şahidi kimi baş verən prosesləri yaxından izləmiş, görüşləri, danışıqları və digər tədbirləri ətraflı şərh etmişdir[4]. Bu sahədə Azərbaycanın görkəmli alimi A.Abbasbəylinin də qiymətli əsərləri var. Azərbaycanın müstəqillik dövründə həyata keçirdiyi xarici siyasət və beynəlxalq əlaqələri A.Abbasbəylinin və E.Abbasbəylinin 1997-ci ildə nəşr etdikləri kitabın[5] tədqiqat obyekti olmuşdur.

Müstəqilliyin ilk illərində, daha doğrusu 1991-1995-ci illərdə Azərbaycanın Avropa dövlətləri ilə qurulmaqda olan münasibətlərinin öyrənilməsinə tarixçi alim Musa Qasımlının araşdırmaları xüsusi qeyd olunmalıdır. Musa Qasımlının əsərlərində 1991-1995-ci illərdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu yer ümumi şəkildə nəzərdən keçirilir, dövlətin xarici siyasətinin prinsipləri, istiqamətləri və bir çox məsələlər araşdırılmışdır.[6] Azərbaycanın Qərb dövlətləri ilə əlaqələrini şərtləndirən müəyyən amilləri göstərən müəllif, problemin tədqiqi istiqamətində ilk mühüm addım atmışdır. Əsərdə Azərbaycanın xarici siyasət məsələlərinin öyrənilməsinin ilkin səciyyə daşıdığı və problemin daha dərindən araşdırılmasını zəruri edir.

---

[1]Əliyeva Gülgəz. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri haqqında // "Bu gün və sabah", № 11 (47), s. 24-28.

[2]Hüseynova H. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, 1998, 110 s.

[3]Həmidov S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. Bakı: ADU, 2009, 271 s.

[4]Шукуров И. Дипломатия мира. Баку: Азербайджан, 390 с.

[5]Аббасбейли А., Аббасбейли Э. Гейдар Алиев и мировая политика. Баку: Азернешр, 1997, 302 с.

[6]Qasımlı M. Abdullayev M. Beynəlxalq Münasibətlər Tarixi (XX əsr. I hissə. 1900-1945-ci illər. Bakı, 1998, 428 s.; Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı: Gənclik, 1996, 135 s.

Son illərdə ümumən Avropaya inteqrasiya kontekstində Azərbaycanın Avropanın regional təşkilatları ilə, aparıcı Avropa dövlətləri ilə münasibətlərinə dair bir sıra tədqiqatlar aparılmışdır ki, bu tədqiqatların alınan nəticələrindən dissertasiyamızda istifadə edilmişdir. Azərbaycanın Avropa dövlətləri ilə ikitərəfli münasibətlərinə dair tədqiqatlar aparan gənc alimlərindən Əliyev Z,[1] Abdullayev Ç,[2] Cəfərli A,[3] İsmayılzadə X,[4] Əliyeva M,[5] Qasımzadə R,[6] Kərimova N, [7]Məmmədzadə N[8]. və b. adlarını çəkmək olar. Bu müəlliflər Azərbaycanın Avropa dövlətləri ilə ikitərəfli siyasi münasibətlərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş və onların tədqiqat işlərində Avropa dövlətləri ilə əlaqələrimizin müxtəlif tərəfləri işıqlandırılmışdır.

Tədqiqat zamanı əvvəlcədən müəyyən etdiyimiz plana və qarşıya qoyduğumuz vəzifələrə uyğun olaraq dissertasiyada Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə sırf ikitərəfli əlaqələri əsas götürülmüş, bu əlaqələrin formalaşması və inkişafında iştirak edən bütün subyektlərin fəaliyyətinə nəzər salınmışdır.

Azərbaycanın xarici siyasət konsepsiyasının formalaşması və inkişafında Ulu Öndər Heydər Əliyevin bilavasitə iştirakı və rəhbərliyi həlledici rol oynadığına görə Azərbaycanın dövlət başçısının müxtəlif görüşlərdəki çıxışları və nitqləri, müsahibələri və məktubları mövzunun tədqiq edilməsində əsas mənbələrdən birini təşkil etmişdir. Bu materiallar nəinki Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsaslarının

---

[1]Əliyev Z.B. Azərbaycan diasporu müasir beynəlxalq münasibətlər sistemində: siyasi elm üzrə fəlsəfə dok. dis. avtoref. Bakı, 2011, 24 s.

[2]Abdullayev.Ç.Ə. Alman-Azərbaycan mədəni əlaqələri: kulturologiya elm. dok. dis. avtoref. Bakı, 2009, 41 s.

[3]Azərbaycan-Polşa münasibətləri: 1991-2006-cı illər: siyasi elm. üzrə fəlsəfə dok.: dis. Bakı, 2010, 20 s.

[4]İsmayılzadə X.F. Azərbaycanın Skandinaviya dövlətləri ilə əlaqələri: siyasi elm. üzrə fəlsəfə dok. ... dis. avtoref. Bakı, 2011, 23 s.

[5]Алиева М.М. Азербайджано-Британские отношения на современном этапе: становление, развитие и перспективы: автореферат дис. ... канд.полит. наук. Баку, 2007, 22 с.

[6]Гасымзаде, Рашад Сулейман оглы. Взаимоотношения Азербайджанской Республики и Европейского Союза в рамках региональной интеграции и программы "Новое соседство": автореферат дис. ... канд. полит. наук. Баку, 2007, 30 с.

[7]Керимова, Натаван Ильяс кызы. Сотрудничество Азербайджанской Республики с Европейским Союзом: автореферат дис. ... канд. полит. наук. Баку, 2004, 26 с.

[8]Мамедзаде, Наргиз Сабир гызы. Взаимоотношения Азербайджанской Республики со славянскими странами в современный период: автореферат дис. ... канд. полит. наук. Баку, 2007, 28 с.

müəyyən edilməsində, eyni zamanda Avropanın inkişaf etmiş dövlətləri ilə siyasi əlaqələrinin formalaşma tarixinin öyrənilməsində əvəzedilməz mənbədir.

Hesab edirik ki, burada Heydər Əliyevin prezidentlik dövründə fəaliyyətinə həsr edilmiş "Müstəqilliyimiz əbədidir" kitablarından[1] istifadəyə böyük ehtiyac var.

Məsələ burasındadır ki, sırf subyekt prizmasından yanaşdıqda, Azərbaycanın Avropa İttifaqına üzv olan əksər dövlətlərlə siyasi əlaqələrimizin zəif olduğu qənaətinə gəlmək olar. Daha doğrusu adı çəkilən müəlliflərin araşdırmalarında siyasi münasibətlərin tədqiqi zamanı, yalnız, Prezidentlik institutunun fəaliyyəti diqqət mərkəzində saxlanılır. Bu isə tədqiqatın çərçivəsini məhdudlaşdırır.

Əksər dövlətlərlə siyasi münasibətlərimizin müasir tarixini araşdırarkən, (1991-2006) zəngin faktoloji bazadan istifadə edilmişdir. Burada söhbət dövrü mətbuatda çap olunan "Azərbaycan", "Yeni Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Бакинский Рабочий" kimi tanınmış qəzetlərdən, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə", Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin "Diplomatiya aləmi", Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin "Azerbaijan Focus" jurnallarından gedir. Bundan başqa tədqiqat zamanı "AzərTac", "Trend," kimi informasiya agentliklərinin materiallarından geniş istifadə edilmişdir. Araşdırma zamanı müxtəlif beynəlxalq təşkilatların, dövlət strukturlarının internet səhifələrində işıqlandırılan məlumatlarından maksimum dərəcədə istifadə olunub. Yuxarıda adı çəkilən mənbələrdə Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətlərinə dair olduqca zəngin məlumatlar var.

Avropa İttifaqının Azərbaycanla münasibətləri haqqında araşdırma apararkən xarici müəlliflərdən daha çox bu təşkilatın özünün rəsmi internet səhifələrində Azərbaycanla bağlı faktlarından istifadə etmişik ki, bu da işin faktoloji bazasının dəqiq olmasına xidmət etməlidir.

Bütün bunlarla yanaşı tədqiqat zamanı Heydər Əliyev İrsinin dissertasiyanın elmi çəkisini artıracağını nəzərə alaraq "Heydər Əliyev İrsi" elektron beynəlxalq kitabxanasının materiallarından da istifadə edilmişdir ki, bunlarda tədqiqatın geniş olmasına böyük yardım

---

[1]Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Noyabr, 1996 -mart, 1997. Səkkizinci kitab H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: Azərnəşr, bütün cildlər.

göstərmişdir.

Tədqiqat zamanı, xüsusən Azərbaycanın Avropa İttifaqına üzv olan Şərqi Avropa dövlətləri ilə münasibətləri tarixini tədqiq edərkən bu ölkələrin Avropaya inteqrasiya prosesi tarixi prizmadan təhlil edilmişdir ki, bu zaman bir sıra xarici müəlliflərin əsərlərində müraciət edilmişdir.

**Dissertasiyanın mənbələri** qarşıya qoyulmuş məqsəd və vəzifələrlə, tədqiqatın predmeti əsasında işə cəlb edilmişdir. İstifadə edilmiş materialları normativ-hüquqi sənədlər (Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası, Mii Təhlükəsizlik haqqında qanun, bağlanmış dövlətlərarası müqavilə və anlaşmalar və s), rəsmi dövlət orqanlarının informasiya və mətbuat agentliklərinin dərc olunan məlumatları və xəbər arxivləri, rəsmi dövlət orqanlarının (Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Milli Məclisi) arxiv materialları (Azərbaycan Respublikası Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstutundan alınan rəsmi məktub əsasında arxivlərə müraciət edilmişdir) beynəlxalq təşkilatların, dövlət orqanlarının rəsmi internet səhifələrində dərc edilən məlumatlar, yerli və xarici elmi jurnallarda dərc edilən analitik məzmunlu məqalələr, mövzu ilə əlaqədar müdafiə olunmuş dissertasiya və onların avtoreferatlarında göstərilən əldə edilən nəticələr və s. kimi qruplaşdırmaq olar.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqatın **obyektini** 1991-2006-cı illərdə Azərbaycan və Avropa İttifaqına üzv olan dövlətlərin siyasi əlaqələri təşkil edir. Tədqiqatın **predmeti** isə 1991-2006-cı illərdə Azərbaycan və Avropa İttifaqına üzv olan dövlətlər arasında siyasi əlaqələrin formalaşma və inkişaf prosesini, bu prosesin özəllikləri və xarakterini əhatə edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində əsas məqsədi rəsmi və elmi populyar mənbələrə əsaslanaraq, 1991-2006-cı illər ərzində Azərbaycan və Avropa İttifaqına üzv olan dövlətlər arasında formalaşmış və inkişaf etmiş siyasi münasibətlərin hərtərəfli, kompleks elmi yanaşmalar əsasında tədqiq etmək, bu siyasi münasibətlərin adekvat mənzərəsini yaratmaq və bu münasibətlərin Azərbaycan üçün əhəmiyyətini müəyyən etməkdən ibarətdir. Əsas məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr seçilmişdir:

– Azərbaycan və Avropa İttifaqına üzv olan dövlətlər arasında siyasi münasibətlərin xronoloji prinsiplərə uyğun olaraq 1991-2006-cı illər arasında inkişaf tarixinin öyrənmək.

– Nəzərə alınmışdır ki, tədqiqat zamanı bütün Avropa dövlətləri ilə deyil, əsasən Avropa İttifaqına üzv olan Avropa dövlətləri ilə siyasi münasibətlərimizin tarixi öyrənilir. Bu dövlətlərin xarici siyasət kursu ilə bağlı araşdırdığımız materiallar, müşahidələr onu deməyə əsas verir ki, Avropa İttifaqına üzv olmaları bu dövlətlərin xarici siyasətinin ikili səciyyə daşımasına gətirib çıxarır. Bu dövlətlərin xarici siyasət kursunda eyni zamanda həm suveren maraqlar və bununla bərabər Avropa İttifaqının xarici siyasət maraqları gözlənilir. Belə bir durum Azərbaycanın bu dövlətlərlə münasibətlərində sezilir. Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə münasibətlərinin tarixini araşdırarkən müəyyən etmək olur ki, bir sıra dövlətlərin Azərbaycana olan marağı Avropa İttifaqının xarici siyasət maraqları ilə şərtlənmişdir.

– Tədqiqat zamanı qarşıya qoyulmuş əsas vəzifələrdən biri 1991-2006-cı illərdə siyasi münasibətlərimizin formalaşması və inkişafında əsas amil olan ortaq siyasi problemlərin ortaya çıxarılmasıdır. Siyasi münasibətlərimizin ampulasını müəyyən edən bir neçə problem ola bilər: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibət və münaqişənin həlli istiqamətində tutulan mövqe, Avropa İttifaqının Azərbaycana olan maraqları və bu maraqların kerçəkləşməsində iştirak etməklə Avorpa İttifaqında nüfuz əldə etmə amili, Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsi siyasəti, Azərbaycanın enerji təhlükəsizliyi siyasəti.

**Tədqiqat zamanı istifadə edilmiş metodlar.** Tədqiqat zamanı xronoloji, müqayisəli-tarixi, müqayisəli siyasi təhlil, prioritet təşkil edən mənbələrin təsviri metodlarından istifadə edilmişdir. Tədqiqat, dissertasiya üçün seçilmiş mövzunun müxtəlif problemlərinin xronoloji qaydada təsvirinə əsaslanır.

**Dissertasiyanın elmi yeniliyi.** Dissertasiyada elmi yenilik kimi müdafiəyə çıxarılan müddəalar aşağıdakılardır:

– Azərbaycan və Avropa İttifaqına üzv olan Avropa dövlətləri arasında siyasi münasibətlər belə geniş miqyasda və fərdi yanaşma üslubunda, tarixi konteksdə (1991-2006-cı illər intervalında) ilk dəfədir ki, tədqiq olunur.

– Yeni mənbələr əsasında Azərbaycan və Avropa İttifaqına üzv olan dövlətlər arasında siyasi əlaqələrin obyektiv inkişaf səbəbləri açıqlanmışdır.

– Bu günə kimi Azərbaycan tarixşünaslığında Azərbaycanın müasir diplomatiyası tarixində xüsusi çəkisi olan, Avropa İttifaqına üzv olan Avropa dövlətləri ilə əlaqələrimizin inkişafı yalnız 1991-1996-cı illəri

əhatə etmişdir. 1991-1996-cı illərdə siyasi münasibətlərin inkişafı müstəvisində yalnız bir neçə aparıcı Avropa dövləti ilə münasibətlərimiz araşdırılmışdır. Tədqiqatda Azərbaycanın ilk növbədə bütün Avropa İttifaqına üzv olan dövlətlərlə əlaqəsi və bundan başqa bu ölkələrlə 1996-cı ilə qədər deyil, məhz 2006-cı ilə qədər siyasi münasibətlərinin formalaşması və inkişaf tarixi xronoloji metodla araşdırılmış və hər bir dövlətlə siyasi münasibətlərimizin özəl spesifikası üzə çıxarılmışdır.

– Müəyyən edilmişdir ki, Azərbaycanın xarici siyasətində prioritet istiqamət olan Avropaya inteqrasiyanın uğurla həyata keçirilməsi üçün Azərbaycanın Avrointeqrasiyanın özəyi olan Avropa İttifaqına üzv olan dövlətlərlə ikitərəfli siyasi münasibətlər qurması həlledici amil olmuşdur.

– 1991-2006-cı illərdə Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətlərinin formalaşma və inkişaf tarixi ilə bağlı araşdırmalarımızda belə bir nəticəyə gəlmişik ki, bizə qədər aparılmış və 1991-1996-cı illəri əhatə edən tədqiqatlarda yalnız bir neçə dövlətlə siyasi əlaqələrimizin öyrənilməsi, digər dövlətlərlə siyasi münasibətlər barədə informasiyanın olmaması ilə bağlı olmuşdur. Müəyyən edilmişdir ki, əksər dövlətlərlə siyasi münasibətlərimizin formalaşma və inkişafı tarixinin öyərnilməsində çətinlik tədqiqat zamanı bütün diqqətin yalnız bir subyektə yönəlməsi ilə bağlıdır. Burada söhbət Azərbaycanın xarici siyasət prioritetlərini reallaşdıran subyektdən gedir. Bunu aradan qaldırmaq üçün biz Avropa İttifaqına üzv olan bütün dövlətlərlə siyasi əlaqələrimizin formalaşma və inkişaf tarixini çoxpilləli formada araşdırmışıq. Bu münasibətlərin formalaşdırlmasında bir deyil bir neçə subyektin rolunu nəzərdən keçirmişik. Nəticədə müəyyən edilmişdir ki, bu dövlətlərlə siyasi əlaqələrimzin inkişafında Prezidentlik institundan başqa parlamentlərarası işçi və dostluq qrupları və o cümlədən diasporaların da böyük rolu var. Təbii ki, ikitərəfli siyasi əlaqələrin qurulmasında rolu olan bütün institutlar ölkə prezidentinin müyyən etdiyi və apardğı xarici siyasətdən qaynaqlanır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunda hazırlanmış və müzakirəyə çıxarılmışdır. Dissertasiyanın aprobasiyası məqsədi ilə tədqiqatın bir sıra nəticələri məqalələr və tezislər formasında Azərbaycanda və xaricdə nəşr olunan bir sıra elmi jurnallarda çap olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, iki fəsil və 5 yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində tədqiqat obyekti kimi qoyulmuş mövzunun aktuallığı əsaslandırılmış, dissertasiyanın məqsəd və vəzifələri müəyyən edilmiş, onun elmi yeniliyi və əhəmiyyəti göstərilmiş, problemlə bağlı olan mənbələr səciyyələndirilmişdir, həmçinin problemin tarixşünaslığı təhlil edilmişdir.

Dissertasiyanın birinci fəsli **Azərbaycan Respublikasının Avropa İttifaqına üzv olan Qərbi Avropa dövlətləri ilə siyasi münasibətləri** adını daşıyır. Bu fəsil üç yarımfəsildən ibarətdir. Müvafiq ardıcıllığa uyğun olaraq ilk növbədə Azərbaycanın xarici siyasət prioritetləri təhlil olunur və bu prioritetlər sırasında Avrointeqrasiya vektorunun əhəmiyyəti təhlil edilir. Azərbaycanın dövlətçilik və diplomatiya tarixinin müxtəlif dövrlərinə istinad edilərək bu vektorun Azərbaycan üçün hər zaman aktual olması isbat edilir. Eyni zamanda xarici siyasətimizin bu istiqamətinin zəruriliyi Ulu öndər Heydər Əliyevin yürütdüyü xarici siyasət kursu ilə sübuta yetirilir. Bu yarımfəsildə müəllif bir sıra ciddi məsələlərin üzərində durur. Maraq doğuran məsələlərdən biri Avrointeqeasiya prosesinin xüsusi mərhələlərə bölünməsidir. Bu deklarativ, uyğunlaşma və implementasiya mərhələləri adlandırılır. Müəllif ona görə ilkin mərhələni deklorativ adlanadırır ki, bu mərhələ Azərbaycanın Avropaya inteqrasiyanı yenicə xarici siyasət prioriteti elan etməsi dövrüdür. Buna qədərki dövr ərzində ümumiyyətlə Azərbaycanın xarici siyasət prioritetləri haqqında söz demək çətindir. Çünki həmin dövrdə nəinki xarici siyasət, ümumiyyətlə dövlətçiliyimiz müəyyən durğunluq dövrünü yaşayırdı. Deklarativ mərhələ bütövlükdə Azərbaycan diplomatiyasının durğunluq dövründən çıxması, Azərbaycanın dünya birliyinə tanıtdırılması mərhələsidir. Burada Avropa İttifaqı ilə yanaşı ATƏT, NATO və Avropa Şurası kimi qurumlarla qarşılıqlı əlaqələrin qurulması da işıqlandırılır. Azərbaycan və Aİ arasında münasibətlərin ilkin mərhələsi kimi TƏS çərçivəsində münasibətlərə xüsusi yer verilir. Deklorativ mərhələ Azərbaycanda demokratik təsisat və institutların Avropa standartlarına yaxınlaşması dövrü kimi izah edilir. Bu tendensiya 1995-ci ildə Azərbaycan Respublikasının konstitusiyasının qəbul edilməsi ilə əsaslandırılır.

İkinci mərhələni uyğunlaşma dövrü adlandıran müəllif bu mərhələdə Avrointeqrasiya prosesi çərçivəsində Azərbaycanın Avropa İttifaqı və digər qurumlar ilə, o cümlədən bu regional təşkilatlarla qarşılıqlı ikitərəfli və çoxtərəfli münasibətlərində əsas götürdüyü prinsiplərin müəyyən

edilməsi dövrü kimi izah edir. Bu mərhələdə Azərbaycanın qurulan münasibətlərində siyasi və iqtisadi maraqları artıq tam müəyyən edilmiş sayılır. İstər Avropanın Azərbaycana, istərsə Azərbaycanın Avropa ilə münasibətlərində gözləntilər aydınlaşır. Bu mərhələdə Avropa artıq Azərbaycanı tanıyır, onu etibarlı əməkdaş kimi qəbul edir və özünün gələcək inkişaf strategiyasında ölkənin mövqeyini müəyyən edir. Belə bir durum Azərbaycanın xarici siyasətinin uğuru kimi qiymətləndirilir. Müəllif haqlı olaraq qeyd edir ki, bu uğur məhz Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin ağır zəhmətinin nəticəsi olmuşdur. Bu mərhələdə Azərbaycan və Avropa İttifaqı arasında TƏS çərçivəsində əməkdaşlıq arxada qalmış, münasibətlər AQS çərçivəsində yeni mərhələyə keçmişdir. Bu mərhələdə Azərbaycan Avropa tərəfindən özünün siyasi problemlərinin qəbul edilməsinə çalışır. Faktiki olaraq bütün siyasi fəaliyyət Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini və Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına yönəlir. İqtisadi sferada əməkdaşlıq yeni mərhələyə keçir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində oynayacağı yeri müəyyən edir. Uyğunlaşma mərhələsində Avropanın bütün nüfuzlu təşkilatlarına üzv olan Azərbaycan istər insan hüquqları və demokratiya sferasında, istər iqtisadi sferada, siyasi və təhlükəsizlik sahələrində Avropa standartları ilə razılaşır və bu standartları qəbul edir. Bu dövrdə Azərbaycan Avropa anlamında tam sivil bir dövlətə çevrilir.

AQS çərçivəsində əməkdaşlığın tamamlanması ilə Avropa İttifaqı-Azərbaycan münasibətləri yeni bir mərhələyə keçir. Bu mərhələni implementasiya dövrü adlandıran müəllif qeyd edir ki, bu mərhələdə Azərbaycanın Avropa İttifaqına üzv olan bütün dövlətlərlə ikitərəfli və çoxtərəfli münasibətləri qurmuşdur. Tədqiqatçı bu mərhələdə baş verən bütün uğurları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlayır. Həqiqətən bu dövrdə prezident İlham Əliyevin Avropanın regional təşkilatları ilə münasibətlərdə oynadığı diplomatik rol mükəmməl sayıla bilər. Bu mərhələdə Azərbaycan strateji və həlledici bir əməkdaşdır. Avropa İttifaqı bütün məsələlərdə Azərbaycanın mövqelərini müdafiə edir. Dağlıq Qarabağla bağlı qəbul edilən bəyanatlarında Ermənistan işğalçı dövlət kimi tanınır. İqtisadi sferada Azərbaycan Avropanın enerji əməkdaşına çevrilmişdir.

Dissertasiyanın birinci fəslinin ikinci və üçüncü yarımfəslində Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə ikitərəfli və çoxtərəfli münasibətləri daha aydın şəkildə izah edilmişdir.

İkinci və üçüncü yarımfəsil Azərbaycanın Avropa İttifaqına üzv olmuş ilk Qərbi Avropa dövlətləri ilə münasibətlərin təhlilinə həsr edilib. Əvvəlcədən nəzərdə tutulmuş plana əsasən Qərbi Avropada Avropa İttifaqına üzv olan bütün dövlətlərlə münasibətlərin əhatə edilməsi baxımından burada Şimali, Qərbi, Mərkəzi və Cənubi Avropa kimi bölgü aparılmışdır.

Avropa İttifaqına üzv olan Qərbi Avropa dövlətlərinin əksəriyyətinin Azərbaycan ilə orta əsrlər dövründən başlayaraq müxtəlif məzmunlu əlaqələri mövcud olmuşdur. Qarşılıqlı əlaqələrimizin tarixi köklərini araşdırdıqda Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər sülalələrinin dövründə bu münasibətlərin çox sıx olduğu sezilir. Bu əlaqələr tədqiqat zamanı nəzərə alınmışdır. Orta əsrlərdə Azərbaycanın Qərbi və Şərqi Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinin tədqiqi zamanı görkəmli tarixşünas alimlərin (Y.Mahmudov, O.Əfəndiyev, S.Aşurbəyli və s.) əsərlərinə müraciət edilmiş və bununla da faktoloji baza zənginləşdirilmişdir. Müəllif qeyd edir ki, müstəqillik illərində Avropa ölkələri ilə münasibətlərimiz qurularkən tarixi irs faktoru hər zaman diqqət mərkəzində olmuşdur. Bu isə qurulan münasibətlərdə strategiyanın düzgün seçilməsinə yardım etmişdir. Eyni zamanda bu diplomatik irsin işıqlandırılması Azərbaycanın dövlətçilik və diplomatik əlaqələrinin nisbətən daha geniş və daha zəngin olmasının isbat edilməsinə yönəlmişdir. XX əsrin əvvəllərində 23 ay mövcud olmuş Azərbaycan Demokratik Respublikasının diplomatik fəaliyyəti də nəzərdən qaçırılmamışdır. Əlbəttə bu əlaqələrin XX əsrin 90-cı illərində müstəqilliyini yenidən bərpa edən Azərbaycanın xarici siyasətinə az xeyri dəymişdir. Bu dövrdə Azərbaycanın xarici siyasi əlaqələrinə göz gəzdirən tədqiqatçı bu əlaqələrin ən müasir diplomatiya tariximizdə sala biləcəyi izləri müəyyən etməyə çalışır. Əsrin əvvəlində Azərbaycan Böyük Britaniya, Fransa, Almaniya, İtaliya kimi qüdrətli Avropa ölkələri ilə qurulan siyasi və iqtisadi hətta hərbi əlaqələri ətraflı şəkildə tədqiq olunmuşdur. Bu əlaqələrin tədqiqi ilə müəllif qarşılıqlı münasibətlərdə tarixi geosiyasi ölməz maraqları üzə çıxarmağa çalışır. Müəyyən edilir ki, Qərbi Avropanın bir sıra aparıcı dövlətlərinin Azərbaycanda olan marağı onların tarixi geosiyasi strategiyasının prinsiplərinə əsaslanır və dəyişməz olaraq qalır. Diplomatik əlaqələrin yenidən qurulması zamanı tarixi keçmiş nəzərə alınmalıdır.

Tədqiqat zamanı müəllif Avropa İttifaqının təsisçi dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişaf tarixinin araşdırılmasına xüsusi diqqət yetirir. Müəyyən olunur ki, Avropa İttifaqının 28 üzvü olsa da onun başlıca xarici

siyasət maraqları Almaniya, Fransa, Böyük Britaniya, Hollandiya, Belçika kimi dövlətlər tərəfindən müəyyən edilir. Bu mənada müəllif məhz adı çəkilən dövlətlərlə qarşılıqlı əlaqələrimizin tədqiqinə xüsusi yer verir. Bura istər ikitərəfli münasibətlər, istərsə də çoxtərəfli münasibətlər aiddir. Adı çəkilən dövlətlərin Avropa İttifaqında və ümumiyyətlə, dünyada rolu böyükdür.

Dissertasiyada Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə qarşılıqlı münasibətləri həm ikitərəfli, həm də təşkilat səviyyəsində araşdırılmışdır.

Xarici əlaqələrin qurulmasında prezidentlik institutunun, parlamentin və diasporların rolu xüsusi araşdırılmışdır.

Tədqiqatçı Avropa İttifaqına üzv olan Avropa ölkələri ilə Azərbaycan arasında siyasi münasibətlərin genişlənməsi və inkişafında ilk növbədə prezidentlik institutunun fəaliyyətini diqqət mərkəzində saxlayır. O öz araşdırmalarında qarşılıqlı əlaqələrin formalaşması və inkişafında ilk növbədə Ulu Öndər Heydər Əliyevin və onun xarici siyasət kursunu davam etdirən ölkə prezidenti cənab İlham Əliyevin bu istiqamətdə yürütdüyü siyasi kursu əsas götürür. Araşdırma zamanı qarşılıqlı səfərlər, bəyanatlar və digər proseslər diqqətlə və ardıcıllıqla izlənilir və bu proseslərin istər ikitərəfli, istər çoxtərəfli münasibətlərin genişlənməsinə təsiri təhlil edilir.

Araşdırmalar zamanı müəllif qeyd edir ki, Azərbaycanın Avropa İttifaqına üzv olan ölkələrlə qarşılıqlı münasibətlərinin inkişafında parlamentlərarası işçi qruplarının da xüsusi çəkisi var. Bu fəaliyyətin öyrənilməsi tədqiqat zamanı hər zaman diqqət mərkəzində olmuşdur.

Avropa İttifaqına üzv olan Şimali və Mərkəzi Avropa ölkələri ilə qarşılıqlı əlaqələrin, siyasi münasibətlərin qismən qurulmasında Azərbaycan diasporunun xüsusi rolu var. Xüsusən Belçika, Avstriya, Lüksemburq, Niderland, Fransa kimi ölkələrdə məskunlaşan həmyerlilərimizin diaspora qrupu kimi təşkilatlanması və fəaliyyətini genişləndirməsi Azərbaycanın bu ölkələrlə siyasi və digər sahədə ikitərəfli münasibətlərinin inkişafına müstəsna təsiri olmuşdur. Azərbaycanın Avropa İttifaqına üzv olan Şimali və Qərbi Avropa ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişaf tarixini araşdıran müəllif bu istiqamətin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. Bu isə tədqiqatın özəlliyini xeyli artırır. Müəllifin fikrincə qarşılıqlı münasibətlərin inkişafında Azərbaycan diasporu üçüncü müstəqil subyekt kimi nəzərdən keçirilməlidir. Araşdırma zamanı xüsusilə qeyd edilir ki, Şimali və Qərbi Avropa ölkələrində yaşayan həmyerlilərimizin diaspora fəaliyyətinin

qurulmasında, onların mütəşəkkil forma almasında Ulu Öndər Heydər Əliyevin bu ölkələrə səfər zamanı həmyerlilərimizlə görüşlərinin xüsusi təsiri olmuşdur.

Tədqiqat zamanı müəllif ilk dəfə olaraq elə Şimali Avropa ölkələri ilə siyasi münasibətlərimizin tarixin öyrənilməsinə toxunmuşdur ki, bu ölkələrlə əlaqələrimiz olduqca az araşdırılmışdır. Bu ölkələr sırasına İsveç, Danimarka, İrlandiya, Finlandiya daxildir.

Ümumiyyətlə, tədqiqatçı siyasi münasibətlərin inkişaf tarixini araşdırarkən təkcə Avropa İttifaqı çərçivəsi ilə məhdudlaşmır. Azərbaycan Avropa İttifaqına üzv olan Qərbi və Şimali Avropa ölkələri ilə Avropa Şurası, ATƏT və NATO kimi beynəlxalq qurumlar çərçivəsində əlaqə saxlayır. Qeyd edilir ki, Azərbaycan qeyd edilən dövlətlərlə Avropa Şurası çərçivəsində insan hüquqları və demokratiya sferasında, NATO çərçivəsində hərbi sahədə, ATƏT-də ümumi təhlükəsizlik problemləri sferasında əməkdaşlıq edir. Müəllif Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə ATƏT çərçivəsində ikitərəfli münasibətlərin inkişafının tədqiqinə xüsusi yer verir. O bunu Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi prosesində ATƏT-in oynadığı rolla əsaslandırır. ATƏT-də daimi rəhbərliyin ölkələr arasında dəyişməsi və praktiki olaraq münaqişə üzrə məsuliyyətin estafeti qəbul etmiş ölkənin üzərinə düşməsi Avropanın daima bu münaqişəni diqqət mərkəzində saxlamasında və bu münaqişə ilə məsuliyyət daşımasına səbəb olmuşdur. Bu amilin özü Azərbaycanın ATƏT çərçivəsində Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətlərinin genişlənməsinə gətirib çıxarmışdır. Təsadüfi deyil ki, məhz Avropa İttifaqının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatlarında Azərbaycanın haqlı mövqeyi müdafiə edilmişdir.

Birinci fəslin üçüncü yarımfəsli Azərbaycanın Avropa İttifaqına üzv olan Mərkəzi və Cənubi Avropa ölkələri ilə siyasi münasibətlərinin inkişafının tarixinin öyrənilməsinə həsr edilmişdir. Bu regionlara daxil olan Avropa dövlətlərinin Azərbaycanla siyasi münasibətlərinin müasir tarixinin tədqiqi əsl yenilik kimi qiymətləndirilməlidir. Paradoks ondan ibarətdir ki, Qərbi və Şimali Avropa ölkələri ilə münasibətlərdən fərqli olaraq bu ölkələrlə münasibətlərimizin tarixi keçmişi daha zəngin olsa da, müasir dövrdə bu münasibətlər nisbətən zəif inkişaf etmişdir.

Bununla belə müəllif müstəqillik illərində Cənubi və Mərkəzi Avropa ölkələri ilə siyasi münasibətlərimizin inkişafı ilə bağlı xeyli faktoloji materialı əlində cəmləşdirib bu münasibətlərin tarixini tədqiq edə bilmişdir. Bununla belə Azərbaycanın bu ölkələr qrupunda da güclü tərəfdaşları vardır. Beləlləri sırasına Avstriya və İtaliyanı aid etmək olar.

Eyni zamanda müəllif Azərbaycanın İspaniya və Portuqaliya ilə siyasi münasibətlərini də diqqətlə araşdırmış və belə bir fikir irəli sürmüşdür ki, bu ölkələrlə siyasi və digər sferada münasibətlərin nisbətən zəif inkişafına müəyyən səbəblər var və onlardan biri odur ki, bu dövlətlərin siyasi və iqtisadi münasibətləri əsasən Latın Amerikası ölkələrinə yönəlməsidir.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan Respublikasının Avropa İttifaqına üzv olan Şərqi Avropa dövlətləri ilə siyasi münasibətləri"** adını daşıyır. Bu fəsil və onun yarımfəsillərində Azərbaycanın Avropa İttifaqına üzv olan Şərqi Avropa dövlətləri ilə 1991-2006-cı illər ərzində formalaşan siyasi münasibətləri təhlil olunur.

Müəllif ilk növbədə Sovetlər Birliyinin süqutundan sonra bu ölkələrin Avrointeqrasiya prosesinə qatılmasını şərtləndirən amilləri araşdırır. O qeyd edir ki, XX əsrin 80-ci illərində dünyanın siyasi səhnəsində baş verən proseslər, dağılmaqda olan sosialist sistemi ilə vidalaşan bir sıra dövlətlər kimi Mərkəzi və Şərqi Avropa dövlətlərinin də xarici siyasəti qarşısında yeni vəzifələr qoydu. Mərkəzi və Şərqi Avropa dövlətlərinin əksəriyyəti üçün tezliklə Avropaya inteqrasiya əsas siyasi prioritetlərdən birinə çevrildi. Bu prioritetləri təmin etmək məqsədilə Mərkəzi və Şərqi Avropa dövlətləri Avropa İttifaqı və Avropa Şurası kimi təşkilatlarla əlaqələr qurmaq üçün yollar axtarmağa başladı. Bu dövlətlər üçün belə təşkilatlara üzv olma tarixi köklərlə bağlı olduqları Avropa ailəsinə qayıdış demək idi. Bundan başqa marginallaşma, izolyasiya buxovlarından azad olma, Avropa İttifaqı bazarlarına çıxış, Avropadan investisiya qoyuluşu ilə bağlı gözləmələr və s. perspektivlər də həlledici təsirə malik idi. Tədqiqatçının fikrincə Mərkəzi və Şərqi Avropa ölkələrinin Avropaya inteqrasiya meyllərinin sürətlənməsində katalizator rolunu Almaniyanın birləşməsindən sonra ADR-in qeyd şərtsiz Avropa İttifaqına və NATO-ya üzv qəbul edilməsi oynadı.

Hesab etmək olar ki, Azərbaycanın Avropa İttifaqına üzv olan Şərqi Avropa dövlətləri ilə əlaqələrinin formalaşması və inkişafında sonuncuların Avropa İttifaqına üzv olmaq meylləri həlledici rol oynamışdır. Belə ki, Cənubi Qafqazın lider dövləti olan Azərbaycanla əlaqələrin genişləndirilməsi Avropa İttifaqının geostrateji maraqlarına daxildir. Azərbaycan Avropa İttifaqı üçün istər enerji resursları baxımından, eyni zamanda, tranzit bir ölkə kimi maraqlıdır. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. XXI əsrin əvvəllərində Avropa İttifaqına üzv olmağa çalışan Şərqi Avropa ölkələri də Avropa İttifaqının Azərbaycana olan marağını nəzərə almış və Azərbaycanla münasibətlərin yaxınlaşmasında sanki öz xidmətlərini təklif

etmişlər. Biz bunu qarşılıqlı kommunikasiya asılılığı adlandırırıq. Sovetlər Birliyi dövründə Şərqi Avropa dövlətləri Asiya ölkələri ilə xarici-iqtisadi və kommunikasiya əlaqələrini bir qayda olaraq SSRİ vasitəsilə həyata keçirirdilər. Azərbaycan da özünün Avropa ilə nəqliyyat-kommunikasiya əlaqələrində eyni məkandan istifadə edirdi. Bu gün qurulan əlaqələr Mərkəzi və Orta Asiya dövlətlərinin, Azərbaycan və Gürcüstanın Qərbə, Avropa dövlətlərinin isə Mərkəzi və Orta Asiyaya çıxış üçün əlverişli və etibarlı nəqliyyat dəhlizinə olan ehtiyacı bu dövlətləri Transqafqaz ideyası ətrafında birləşməyə sövq etmişdir. Avropa İttifaqının həyata keçirdiyi TACİS, TRASECA, İNOGATE kimi proqramlar məhz bu məqsədə xidmət edir.

Azərbaycan və Şərqi Avropa ölkələri arasında siyasi münasibətlərin yaranmasını zəruri edən şərtlərdən biri də bu dövlətlərin oxşar daxili problemləri həll etmələri ilə bağlıdır. Bu ölkələrdə yeridilən daxili siyasət və prinsiplər bu və ya digər şəkildə Azərbaycanda da öz əksini tapır. Bu da fikrimizcə, həm bu dövlətlərin, keçmişdə mövcud olduqları iqtisadi məkanın, inkişaf yönümlərinin və meyarlarının həm də bu gün tutduqları strateji inkişaf istiqamətlərinin və meyllərinin oxşarlığı və yaxınlığının nəticəsidir.

Azərbaycanı Avropa İttifaqına üzv olan Şərqi Avropa dövlətləri ilə siyasi münasibətləri genişləndirməyə sövq edən əsas siyasi amillərdən biri bu dövlətlərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərəzli mövqe tutmaması ilə bağlıdır. Bu dövlətlərin hər biri Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə bəyan etmişdir. Faktiki olaraq Avropa Şurası və Avropa İttifaqının bu günə kimi münaqişə ilə bağlı qəbul etdiyi bütün qətnamələrdə bu dövlətlər Azərbaycanın xeyrinə səs vermişdir. Bu həmin dövlətlərin Azərbaycana olan iqtisadi marağı ilə bağlıdır. Azərbaycan tərəfi də bunu başa düşür, bu dövlətlərlə səmərəli iqtisadi münasibətlərin genişləndirilməsinə çalışır. Tədqiqatçı hesab edir ki, Şərqi Avropa dövlətlərinin Azərbaycanla siyasi münasibətlərinin müsbət mənada genişlənməsi və inkişafı Azərbaycanın Avropada və dünyada siyasi mövqelərinin xeyli güclənməsinə xidmət edir.

Dissertasiyanın nəticə hissəsində ümumiləşdirmələr aparılmış, nəzəri və əməli əhəmiyyət daşıyan elmi müddəalar, tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. Şərq tərəfdaşlığı proqramı müstəvisində Azərbaycan və Avropa İttifaqı münasibətləri // Tarix və onun problemləri, 2010, №4, s. 158-167.
2. Avropa İttifaqı və Azərbaycan arasında qarşılıqlı əlaqələrin formalaşması və inkişaf dinamikası: siyasi aspekt // Pedaqoji Universitetinin Xəbərləri, 2010, №6, s. 119-127.
3. Azərbaycan və Fransa münasibətlərinin formalaşması tarixi: siyasi aspekt // Tarix və onun problemləri, 2011, №1, s. 138-145
4. Azərbaycan Respublikası və Almaniya arasında siyasi münasibətlərin formalaşma dinamikası // AMEA-nın məruzələri, Bakı, 2011, №2, s. 138-144.
5. Политические аспекты Азербайджано-Британских отношений // Казахский Национальный Университет имена Аль-Фараби. Вестник Казну, Almata, 2011, №1-2 (51-52), с. 150-154.
6. Приоритеты внешней политики Азербайджанской Республики в современный период // КГУ имени Е.А.Букетова. Вестник Карагандинского Университета, Казахстан, 2011, №3 (63), с.17-21.
7. Азербайджан как главный партнер Европейского Союза в Южно-Кавказском регионе / Пензенская Государственная Технологическая Академия, материалы международной научно-практической конференции, Пенза, 2011, с. 67-71.
8. Avroatlantik məkana inteqrasiya müstəvisində Azərbaycan və Avropa Şurası əlaqələri / AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu "Heydər Əliyev Məktəbi" Ulu Öndər Heydər Əliyevin irsi və politologiyanın aktual problemlərinə həsr olunmuş ümumrespublika elmi-praktiki konfransının materialları. Bakı, s. 153-157.
9. Azərbaycan və Avstriya Respublikası arasında siyasi münasibətlərin inkişafı // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. İctimai elmlər seriyası, 2012, №2 (47), s. 135-139.

**Заур Назим оглы Адыгезалов**

# АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА И СТРАНЫ ЕВРОПЕЙСКОГО СОЮЗА: ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ (1991-2006)

## РЕЗЮМЕ

Диссертация структурно состоит из одного введения, двух глав и пяти подглав, заключения и перечня литературы. По содержанию данная исследовательская работа посвящена изучению истории формирования и развития политических отношений Азербайджана с государствами-членами ЕС 1991-2006 гг. в рамках евроинтеграции, которая является одним из внешнеполитических приоритетов.

В введении диссертации указаны основания, актуализирующие ее тему, определена степень обработки проблемы, а также нашли свое отражение хронологические рамки, объект и предмет, цель и обязанности, апробация диссертации.

Первая глава диссертации называется "Политические отношения Азербайджана с Западноевропейскими государствами-членами Европейского Союза" и структурно состоит из трех подглав. В первой подглаве рассказывается о сущности процесса евроинтеграции, которая является одним из важнейших внешнеполитических приоритетов. Изучаются выгоды, которые дала и сможет дать Евроинтеграция Азербайджану. Во время исследования уделяется особое внимание индивидуальному изучению отношений с каждым государством. Интересно, что в процессе формирования и развития этих отношений обращается внимание не только государственным инстанциям, но и деятельности диаспорных структур.

Вторая глава диссертации посвящена процессу формирования и развития двухсторонних политических отношений Азербайджана с юго-восточными странами, вошедшими в Европейский Союз. По стилю вторая глава идентична первой главе. В заключении нашли свое отражение выводы, полученные в конце работы, предложения и рекомендации автора, соображения автора относительно будущих перспектив взаимоотношений с этими странами.

**Zaur Nazim oglu Adigozalov**

# THE REPUBLIC OF AZERBAIJAN AND EUROPEAN UNION COUNTRIES: POLITICAL RELATIONSHIP (1991-2006)

## SUMMARY

The thesis structurally consists of one introduction, two chapters and five subchapters, conclusion and reference. The contents of the this research paper is addressed to studying the history of formation and development of political relations of Azerbaijan with the EU member states in 1991-2006, within Eurointegration, one of foreign political priorities.

The introduction of the thesis deals with the grounds actualizing its subject, determines the problem consideration degree, as well as sets forth the chronologic extent, object and subject, goal and obligations, approbation of the thesis.

The first chapter is named as “Political relations of Azerbaijan with the Western European states - European Union members” and its structure consists of three subchapters. The first deals with the essence of the Eurointegration process, one of the most important foreign political priorities. The advantages given and to be given to Azerbaijan by the Eurointegration are researched. It is matter of interesting that in the process of formation and development of such relations the attention is paid not to state agencies, but also to activities of diasporic structures.

The second chapter of the thesis is addressed to the process of formation and development of bilateral political relations of Azerbaijan with the Southern Eastern states entered into European Union. In this chapter, the the investigator through individual approach also attempts to explain the relation and ground of interest towards Azerbaijan in foreign politics of such states. The style of the second chapter is similar to the style of the first one.

The conclusion reflects the results obtained at the end of the paper, as well as the author's suggestions and recommendations, his considerations with regard to future perspectives of relations with these countries.

Çapa imzalanmışdır: 22.11.2013
Formatı: 60/84, 16/1
Sifariş № 66
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.***
**Ünvan:** *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*
*E-mail: tusinesr@rambler.ru*

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ЗАУР НАЗИМ оглы АДЫГЕЗАЛОВ**

# АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА И СТРАНЫ ЕВРОПЕЙСКОГО СОЮЗА: ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ (1991-2006)

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**НАХЧЫВАН – 2013**